# AVTOMOBİL NƏQLİYYATI VASİTƏSİ SAHİBLƏRİNİN MÜLKİ MƏSULİYYƏTİNİN KÖNÜLLÜ SIĞORTASININ ƏSAS QAYDALARI

**B A K I  2010**

# AVTOMOBİL NƏQLİYYATI VASİTƏSİ SAHİBLƏRİNİN MÜLKİ MƏSULİYYƏTİNİN KÖNÜLLÜ SIĞORTASININ ƏSAS QAYDALARI

## ÜMUMİ MÜDDƏALAR

Bu qaydalar Azərbaycan Respublikasının «Sığorta fəaliyyəti haqqında» Qanununa, Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ, SIĞORTA OBYEKTİ, SIĞORTA PREDMETİ VƏ SIĞORTA SİNİFİ

1.1. Bu sığorta qaydaları ilə sığortaçı, sığorta şəhadətnaməsində göstərilən nəqliyyat vasitəsi idarə olunarkən üçüncü şəxslərin əmlakına və ya səhhətinə vurulmuş itki və ziyanlara («Azərbaycan Respublikasında nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında» Azərbaycan Respublikası Qanununda göstərilmiş təminat limitlərindən artıq olan ziyan məbləğinə) sığorta şəhadətnaməsində yazılmış limitlər həddində təminat verir.

1.2. **sığorta obyekti** - vətəndaşlara və hüquqi şəxslərə mülkiyyət formasından asılı olmayaraq məxsus avtomobil nəqliyyatı vasitəsindən istifadə olunarkən baş vermiş qəzalar nəticəsində üçüncü şəxslər qarşısında yaranan mülki məsuliyyət nəticəsində itkilərə məruz qalması ilə bağlı onların (avtomobil sahiblərinin) əmlak mənafeləri.

1.3. **sığorta predmeti** - vətəndaşlara və hüquqi şəxslərə mülkiyyət formasından asılı olmayaraq məxsus avtomobil nəqliyyatı vasitəsi sahiblərinin baş vermiş qəzalar nəticəsində yaranan mülki məsuliyyəti.

1.4. Sığorta, **sığorta sinifi** üzrə sığortalının özü, yaxud onun etibar etdiyi şəxs sığortalanmış avtomobil nəqliyyatı vasitəsindən istifadə edərkən üçüncü şəxslərə vurduğu zərərin əvəzini ödəmək öhdəliyi ilə əlaqədar onun əmlak mənafeləri ilə bağlı zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişinin həyata keçirilməsini nəzərdə tutan **avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortası sinifi**nə aiddir.

## 2. SIĞORTANIN ƏRAZİSİ

Əgər sığorta şəhadətnaməsində digər hal nəzərdə tutulmamışdırsa, sığorta təminatı yalnız Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

## 3. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN HALLAR (İSTİSNALAR)

3.1. Sığortalının özünə dəyən zərərlər;

3.2. Nəqliyyat vasitəsini idarə edən şəxsə dəyən ziyanla əlaqədar irəli sürülən tələblər;

3.3. Nəqliyyat vasitəsinin sahibinin və ya onu idarə edən şəxsin həyat yoldaşına, ailə üzvlərinə (övladlığa götürdüyü şəxslər daxil olmaqla) və onunla birlikdə yaşayan bacı-qardaşlarına dəyən ziyanla əlaqədar irəli sürülən tələblər;

3.4. Nəqliyyat vasitəsinin sahibi ilə onu idarə edən şəxs arasındakı münasibətdən nəqliyyat vasitəsinə dəyən zərərə görə irəli sürülən tələblər;

3.5. Sığorta şəhadətnaməsində göstərilən nəqliyyat vasitəsinə, nəqliyyat vasitəsində daşınan mallara (sərnişinlərin əl yükləri və bu kimi əşyalara təminat verilir) və ya nəqliyyat vasitəsinə qoşularaq çəkilən şeylərə itki və ya ziyan dəyməsi ilə əlaqədar irəli sürülən tələblər;

3.6. Oğurlanmış və ya qaçırılmış nəqliyyat vasitəsi ilə vurulan itki və ziyanlar, nəqliyyat vasitəsinin oğurlandığını və ya qaçırıldığını bilərək ona minən sərnişinlərə dəyən itki və ziyanla əlaqədar irəli sürülən tələblər;

3.7. Avtomobil yarışlarında (ralli) və ya yarış meydançalarında  məşq zamanı baş verən itki və ziyanla əlaqədar irəli sürülən tələblər;

3.8. Nəqliyyat vasitəsinin qorunması, təmir edilməsi, texniki vəziyyətinin yoxlanılması, alqı-satqısı, müəyyən dəyişiklik edilməsi və digər bu kimi məqsədlərlə əlaqədar yerlərə qoyulmasından sonra meydana çıxan itki və ziyanla bağlı irəli sürülən tələblər;

3.9. Partlayıcı və ya tezalovlanan maddələrin (ehtiyat benzin və ya dizel yanacaq istisna olmaqla) daşınmasına görə dəyən itki və ziyanla bağlı irəli sürülən tələblər;

3.10. Mənəvi ödəniş tələbləri.

## 4. SIĞORTA TƏMİNATINA DAXİL OLMAYAN ZƏRƏRLƏR (İSTİSNALAR)

4.1. Sığortalının qəsdən vurduğu itki və ziyanlar;

4.2. Üçüncü şəxslərin qəsdi nəticəsində üçüncü şəxslərə və onların əmlakına dəymiş zərərlər;

4.3. Nəqliyyat vasitəsi, «Yol hərəkəti haqqında» Azərbaycan Respublikası Qanununa əsasən lazımi sürücülük vəsiqəsi, kateqoriyası və ya yol vərəqəsi olmayan şəxs tərəfindən idarə edildiyi zaman baş verən itki və ziyanlar;

4.4. Nəqliyyat vasitəsinin spirtli içkilərin təsiri altında olub idarəetmə qabiliyyətini itirmiş və ya narkotik, toksik maddə qəbul etmiş şəxs tərəfindən idarə olunduğu zaman baş verən itki və ziyanlar;

4.5. Nəqliyyat vasitəsinin sərnişin daşınması üçün nəzərdə tutulmayan hissəsində sərnişin daşınması və ya səlahiyyətli orqanlar tərəfindən müəyyən edilmiş normadan artıq sərnişin və ya yük daşınması zamanı baş verən itki və ziyanlar;

4.6. Sığortalı sığorta hadisəsi baş verdiyi zaman 9-cu maddədə göstərilən vəzifələrini yerinə yetirməzsə və bunun  nəticəsində zərər və ziyanın məbləği artarsa, sığortaçı ziyan çəkmiş üçüncü şəxsə ödəniş verərək bərabər artan məbləği sığortalıdan geri alır.

## 5. SIĞORTANIN MÜDDƏTİ, TƏMİNATIN BAŞLANMASI VƏ SONA ÇATMASI

Sığorta, əgər sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta şəhadətnaməsində göstərilmiş  başlanma və sona çatma tarixlərində saat 24.00-da başlayır və saat 24.00-da sona çatır.

## 6. SIĞORTA HAQQININ ÖDƏNİLMƏSİ VƏ SIĞORTA MÜQAVİLƏSİNİN QÜVVƏYƏ MİNMƏSİ

6.1. Tərəflər arasında sığorta haqqının bütövlükdə və ya hissələrlə ödənilməsi razılaşdırıla bilər. Sığorta haqqı (sığorta haqqının birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman, qalan hissələr isə sığorta şəhadətnaməsində göstərilən tarixlərdə ödənilməlidir.

6.2. Sığorta haqqı (onun birinci hissəsi) sığorta şəhadətnaməsi təqdim olunan zaman ödənilməsə, sığortaçı sığorta ilə əlaqədar heç bir məsuliyyət daşımır və bu şərt sığorta şəhadətnaməsinində qeyd olunmalıdır.

6.3. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı halda sığorta hadisəsi baş verdiyi zaman ödənilməli olan bütün vaxtı çatmış və ya gecikdirilmiş hissələr sığortaçının qərarına əsasən sığorta ödənişindən bir dəfəyə çıxıla bilər.

6.4. Sığorta haqqının hissələrlə ödənilməsi razılaşdırıldığı hallarda hissələrdən hər hansı biri şəhadətnamədə göstərilən vaxtda ödənilməsə, sığortaçı həmin hissənin 15 (on beş) gün

müddətində ödənilməsini, əks təqdirdə sığorta şəhadətnaməsinin ləğv ediləcəyini sığortalının ona bildirmiş olduğu son yaşayış ünvanına sifarişli məktubla bildirir. Sığorta haqqı borcu bu müddət ərzində də ödənilməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur. Ləğv etmənin hüquqi qüvvə qazandığı tarixə qədər keçən müddətin sığorta haqqı gün hesabı ilə hesablanır və artıq qalan məbləğ (əgər varsa) sığortalıya Mülki Məcəllənin 921-ci maddəsinin tələbləri nəzərə alınaraq qaytarılır.

6.5. Əgər sığorta şəhadətnaməsində sığorta haqqının (birinci hissəsinin) ödənilməsinə qədər sığorta şəhadətnaməsinin qüvvəyə minməsi nəzərdə tutulmuşdursa, sığorta haqqı (birinci hissə) sığorta şəhadətnaməsi qüvvəyə mindiyi andan 30 (otuz) gün ərzində ödənilməlidir.

Sığorta haqqı (birinci hissə) göstərilən müddət ərzində sığortaçıya ödənilməzsə, sığorta şəhadətnaməsi qüvvəsini itirir.

## 7. SIĞORTALININ MÜQAVİLƏ BAĞLANDIĞI ZAMAN MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları sığortaçıya bildirməlidir.

Sığortalının bildirdiyi məlumatların yanlış və ya yarımçıq olaması hallarında:

7.1. Sığortalının bu hərəkəti qəsdən etdiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 (bir) ay müddətində sığorta şəhadətnaməsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə ödəniş verməz. Belə olan halda sığortaçı işlərin aparılması xərclərini çıxaraq müqavilənin qurtarmamış müddəti üzrə sığorta haqqını sığortalıya qaytarır;

7.2. Sığortalının bu hərəkəti qəsdən etmədiyi müəyyən olunarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən 1 (bir) ay müddətində sığorta şəhadətnaməsini ləğv edə bilər və ya sığorta şəhadətnaməsinin şərtlərini dəyişdirmək, və yaxud əlavə sığorta haqqı almaqla sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

Əgər sığortalı sığorta şəhadətnaməsinin şərtlərinin dəyişdirilməsinə və ya əlavə sığorta haqqının ödənilməsinə razı olmazsa, sığorta şəhadətnaməsi bu dəyişikliyin baş verdiyi andan etibarsız sayılır.

Sığortalı 10 (on) gün müddətində əlavə sığorta haqqını ödəməzsə, sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

Sığortaçı tərəfindən həyata keçirilən ləğvetmə onun bu haqqda sığortalıya sifarişli məktubla məlumat göndərdiyi tarixdən etibarən 5 (beş) gündən sonra saat 24.00-da qüvvəyə minir.

7.3. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etmək hüquqi qüvvədən düşür.

7.4. Sığortalının hərəkətinin qəsdən edilmədiyi hallarda, əgər sığorta hadisəsi sığortaçı vəziyyəti öyrənməmişdən əvvəl və ya sığortaçının sığorta şəhadətnaməsinin ləğv olunmasını tələb edə biləcəyi müddət ərzində və yaxud şəhadətnamə ləğv edilmiş hesab olunana qədər keçən müdət ərzində baş verərsə, sığortaçı, sığorta ödənişin ödənilən sığorta haqqı ilə ödənilməli olan sığorta haqqı arasındakı nisbət həcmində azalda bilər.

## 8. SIĞORTA MÜDDƏTİ ƏRZİNDƏ SIĞORTALININ MƏLUMAT VERMƏK VƏZİFƏLƏRİ

8.1. Sığorta şəhadətnaməsi imzalandıqdan sonra sığortalının bildirirdiyi hallarda dəyişiklik baş verərsə, o riskə təsir edə bilən və ona məlum olan bütün dəyişikliklər haqqında sığortaçıya ən geci 5 (beş) gün ərzində məlumat verməlidir.

8.2. Sığortaçı dəyişikliyi öyrəndiyi tarixdən etibarən 10 (on) gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilər, şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı tələb etməklə sığorta şəhadətnaməsini qüvvədə saxlaya bilər.

8.3. Sığortalı, 5 (beş) gün ərzində tələb edilən əlavə sığorta haqqını ödəməyəcəyini bildirdiyi təqdirdə sığorta şəhadətnaməsi ləğv edilmiş hesab olunur.

Sığortaçı tərəfindən edilən ləğvetmə onun bu haqqda məlumatı sifarişli məktubla sığortalıya göndərdiyi tarixdən etibarən 5 (beş) iş günündən sonra saat 24.00-da qüvvəyə minir.

8.4. Sığorta şəhadətnaməsinin ləğv edilmiş hesab olunmasına qədər keçən müddətin sığorta haqqı, sığorta şəhadətnaməsinin sığortaçı tərəfindən ləğv olunarkən gün hesabına görə, sığortalı tərəfindən ləğv edilməsi zamanı qısa müddətli sığorta kimi hesablanır və artığı geri qaytarılır.

8.5. Vaxtında istifadə olunmayan ləğvetmə və ya əlavə sığorta haqqı tələb etmək hüququ qüvvədən düşür.

8.6. Sığorta riskinin başvermə ehtimalını artıran dəyişiklikləri sığortalı göstərilən müddət ərzində qəsdən bildirməmişdirsə, bu dəyişiklik baş verən andan sonra dəyən itki və ziyanlara görə sığortaçı məsuliyyət daşımır.

8.7. Dəyişiklik riskin başvermə ehtimalını azaldarsa və daha az sığorta haqqının alınmasını tələb edərsə, bu dəyişikliyin ortaya çıxdığı tarixdən sığorta şəhadətnaməsinin sona çatma tarixinə qədər olan müddət üçün sığorta haqqı gün hesabına görə hesablanır və fərq sığortalıya qaytarılır.

## ZƏRƏR VƏ ÖDƏNİŞ

## 9. SIĞORTA HADİSƏSİ ZAMANI SIĞORTALININ VƏZİFƏLƏRİ

Sığortalı, mülki məsuliyyətinə səbəb ola biləcək sığorta hadisəsi baş verdiyi zaman itki və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq üçün zəruri və məqsədyönlü tədbirləri görməlidir. İtki və ziyanın qarşısını almaq və ya miqdarını azaltmaq məqsədilə çəkilən məqsədəuyğun xərclər sığortaçı tərəfindən ödənilir.

## 10. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏN SONRA SIĞORTALININ VƏZİFƏLƏRİ

10.1. Sığortalı onun mülki məsuliyyətinə səbəb ola biləcək sığorta hadisəsinin baş verməsini bildiyi və ya bilməli olduğu andan 3 (üç) gün ərzində bu haqda sığortaçıya yazılı və ya şifahi məlumat verməlidir.

10.2. Bu məlumatda qəzanın yeri, vaxtı, səbəbləri və şəraiti haqqında, qəza nəticəsində ölən və yaralananlar, zərər çəkmiş mallar və onların sahibləri ilə bağlı məlumatlar dolğun və düzgün əhatə olunmalıdır.

10.3. Sığortalı zərərlə əlaqədar səlahiyyətli dövlət orqanlarının və digər şəxslərin bütün hərəkətləri haqqında sığortaçıya məlumat verməlidir.

10.4. Sığortalı, sığortaçının tələb etdiyi bütün məlumat və sənədləri sığortaçıya təqdim etməlidir.

10.5. Sığortalı itki və ziyan tələbinin araşdırılması və hüquqlarının müdafiəsi işində sığortaçıya hərtərəfli kömək göstərməlidir.

10.6. Sığortaçının rəsmi razılığı olmadan sığortalı itki və ziyan tələbini bütövlükdə və ya qismən qəbul edə bilməz, habelə bununla əlaqədar hər hansı bir ödənişi həyata keçirə bilməz.

## 11. İTKİ VƏ ZİYANIN MÜƏYYƏN EDİLMƏSİ

11.1. Sığortaçı, sığortalının razılığı ilə ödəniş tələbi irəli sürən üçüncü şəxslə birbaşa razılığa gəlmək hüququna malikdir.

11.2. İcbari sığortanın limitlərini aşan məhkəmə xərcləri sığortaçıya aiddir. Tələb edilən ödəniş sığorta məbləğindən artıq olarsa, sığortaçı bu xərcləri sığorta məbləğinin ödənişə olan nisbətində ödəyir.

11.3. Sığortalı və ya nəqliyyat vasitəsini idarə edən şəxsə qarşı cinayət işi qaldırılarsa, sığortaçı təqsirli hesab edilən şəxsin razılığı ilə onun müdafiəsinə qoşula bilər. Bu zaman sığortaçı, yalnız özünün seçdiyi vəkilin xərclərini ödəyir.

Cinayət işinin gedişatı ilə əlaqədar digər xərclər və pul cərimələri sığorta təminatına daxil deyildir.

## 12. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

12.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

12.1.1. vaxtında məlumatlandırma tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tələblərə riayət edilmədikdə;

12.1.2. qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

12.1.3. müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

12.1.4. sığortalının dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

12.1.5. sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən Mülki Məcəllədə müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

12.1.6. sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta

riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

12.1.7. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

12.1.8. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

12.1.9. bu sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

## 13. ÖDƏNİŞİNİN NƏTİCƏLƏRİ

13.1. Qismən dəymiş ziyanlarda tərəflər, sığorta ödənişi tələb edilməsinə səbəb olacaq hər bir hadisədən sonra sığorta şəhadətnaməsini ləğv etmək hüququna malikdirlər. Sığortaçı ləğvetmə hüququndan yalnız sığorta ödənişini verdikdən sonra istifadə edə bilər.

13.2. Sığortaçı ləğvetmə hüququndan istifadə etdiyi təqdirdə ləğvetmə, onun bu barədə məlumatı sifarişli məktubla sığortalıya göndərdiyi tarixdən 10 (on) gün sonra saat 24.00-da hüquqi qüvvəyə minir.

13.3. Sığortalı ləğvetmə hüququndan istifadə etdiyi təqdirdə ləğvetmə bu barədə məlumatı sifarişli məktubla sığortaçıya göndərildiyi tarixdən ertəsi gün saat 24.00-da hüquqi qüvvəyə minir.

## 14. SIĞORTA MÜQAVİLƏSİNƏ XİTAM VERİLDİKDƏ SIĞORTA HAQQININ HESABLANMASI

14.1. Sığorta qanunvericiliyində və ya könüllü sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, həmçinin tərəflərin başqa cür razılaşmasına əsasən, sığorta müqaviləsinə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən, bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl), tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

14.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

14.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta

haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

14.4. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

14.5. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu maddənin 14.2.-ci və 14.3.-cü bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

14.6. Sığorta müqaviləsi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində müəyyən edilmiş qaydada xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 14.4.-cü və 14.5.-ci maddələrinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

14.7. Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, işlərin aparılması xərcləri dedikdə inzibati xərclər və sığorta ödənişi nəzərdə tutulur.

## DİGƏR MÜDDƏALAR

## 15. İKİLİ (ÇOXQAT) SIĞORTA

Sığortalı, mülki məsuliyyətini başqa sığortaçılarda da eyni risklərə qarşı və eyni müddətə sığorta etdirmişdirsə, bu vəziyyəti sığortaçıya dərhal bildirməlidir.

## 16. MÜLKİYYƏT SAHİBİNİN DƏYİŞMƏSİ

16.1. Sığorta müddəti ərzində mülkiyyət sahibi dəyişərsə, sığorta müqaviləsi ləğv olunmuş hesab olunur.

16.2. Sığortalı vəfat edərsə, sığorta şəhadətnaməsindən irəli gələn bütün hüquq və vəzifələr yeni mülkiyyət sahibinə (varisə) keçir. Sığortanın mövcudluğunu öyrənən yeni mülkiyyət sahibi 15 (on beş) gün ərzində bu barədə sığortaçını məlumatlandırmalıdır.

16.3. Sığortaçı dəyişikliyi, yeni mülkiyyət sahibi isə sığortanın mövcudluğunu öyrəndikləri tarixdən etibarən 5 (beş) gün ərzində sığorta şəhadətnaməsini ləğv edə bilərlər.

Şəhadətnamənin ləğv edilməsi tarixinə qədər keçən müddətin sığorta haqqı gün hesabına görə hesablanır və artıq qalan məbləğ yeni mülkiyyət sahibinə (varisə) qaytarılır.

## 17. MƏLUMAT VƏ XƏBƏRDARLIQLAR

17.1. Sığortalının xəbərdarlıq və məlumatları sığortaçıya və ya sığorta müqaviləsinin bağlanmasına vasitəçilik edən agentə sifarişli məktubla çatdırılır.

17.2. Sığortaçının xəbərdarlıq və məlumatları sığortalının sığorta şəhadətnaməsində göstərilən hüquqi ünvanına və ya sığorta şəhadətnaməsinin imzalanmasına vasitəçilik edən agentə bildirilən son ünvanına sifarişli məktubla çatdırılır.

17.3. Tərəflərə imza edilməklə verilən məktublar və ya teleqraf vasitəsi ilə edilən xəbərdarlıq və məlumatlar da sifarişli məktub vasitəsilə bildirilən xəbərdarlıq və məlumatlar səviyyəsində hüquqi qüvvəyə malikdir.

## 18. İŞ SİRRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirrlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 19. MÜBAHİSƏLƏRƏ BAXILMASI

Tərəflər sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələri danışıqlar yolu ilə həll edirlər. Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyəti məhkəmələrdə baxılır.

## 20. MÜDDƏT

Sığorta şəhadətnaməsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətlərdə həll edilir.

## 21. XÜSUSİ ŞƏRTLƏR

Sığorta şəhadətnaməsində əsas şərtlərə və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.

**«AzSığorta» Açıq Səhmdar Cəmiyyəti**

## Avtomobil nəqliyyatı vasitəsi sahiblərinin mülki məsuliyyətinin könüllü sığortası üzrə tarif dərəcələrinin əsaslandırılması

Tarif dərəcələri əsaslandırılarkən əvvəlcə netto-dərəcələr hesablanır. Netto-dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş verməsi ehtimalı(q) - 0,03;
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği(So) - 40 min manat;
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi(Sö) - 10 min manat;
4) Bağlanılacaq sığorta müqavilələrinin sayı (n) - 350.

Tn,Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risк üstəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

Tə = 100qSö/So = 100.0,03.10 000/40 000 = 0,75 manat.

Risk üstəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risk üstəliyi aşağıdakı düsturla hesablanır:

/2 1/2

Tr =1,2Tə.a.((1 - q)/(nq)) = 0,75.1,2.2.((1-0,03)/(350.0,03)) =

= 0,55 manat.

Tn = Tə + Tr = 0,75 + 0,55 = 1,3 manat.

Tarif dərəcəsinin strukturu: netto-dərəcə-70%, yüklənmə-30%. O cümlədən, işlərin aparılması xərcləri-28%, tarif mənfəəti-2%.

Brutto-dərəcəni Tb ilə işarə edək. Onda brutto-dərəcənin hesablanması düsturuna əsasən

Tb = Tn /(1-f) = 1,3/(1-0,3) = 1,86 manat.

Tarif dərəcələri avtomobil nəqliyyatı vasitəsinin növündən və təminat həddinin miqdarından asılı olaraq diferensiallaşdırılır. Ona görə də, yekun tarif dərəcəsi 1,5%-5% aralığında dəyişir.